

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (21.267)

12 iyun 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini iyunun 11-də qəbul edib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, birinci Avropa Oyunlarının ölkəmizdə keçirilməsinin önəmi qeyd edildi və bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə xidmət edəcəyi bildirildi.

Dövlətimizin başçısı Gürcüstan idmançılarına da yarışlarda uğurlar arzuladı.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

İyunun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovu qəbul edib.



## Əlahiddə Ümumqoşun Ordusunun gecə şəraitində taktiki təlimi keçirilmişdir

Milli Qurtuluş Gününün bəhrələrindən biri də güclü və qüdrətli Azərbaycan ordusunun yaradılmasıdır. Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu strategiyasının uğurla davam etdirilməsi ölkəmizin hərbi qüdrətini ilbəil artırır. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təminatı gücləndirilməklə yanaşı, həm də şəxsi heyətin döyüş qabiliyyətinin artırılması diqqət mərkəzində saxlanılır, hərbi təlimlər keçirilir.

İyunun 10-da – Milli Qurtuluş Günü ərəfəsində Əlahiddə Ümumqoşun Ordusunun gecə şəraitində taktiki təlimi keçirilmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev təlimin döyüş atışlı gecə mərhələsinə hazırlıq barədə Ali Məclisin Sədrinə raport vermişdir.







Bildirilmişdir ki, muxtar respublikada gecə şəraitində keçirilən təlimə 600-dən çox şəxsi heyət, 110 döyüş və müxtəlif təyinatlı texnikalar, 25 reaktiv və artilleriya qurğusu, 2 döyüş vertolyotu, 4 zenit-raket qurğusu və 4 mühəndis texnikası cəlb olunmuşdur. Təlimin keçirilməsində məqsəd dağlıq ərazidə, istənilən hava və məhdud görmə şəraitində hissə və birləşmələrin döyüş tapşırıqlarını yerinə yetirməkdən ibarətdir.

Təlim 3 mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə gecə şəraitində yenidən qruplaşma və hücum üçün mövqelərin hazırlanması, ikinci mərhələdə aktiv gecə fəaliyyətlərinə keçmək və tabor taktiki qrupların ərazinin işıqlandırılması vasitələrindən istifadə edərək müdafiəyə çəkilən düşmənə qarşı hücuma keçməsi, üçüncü mərhələdə isə tabor taktiki qrupların yandan ötən dəstələrinin qarşılıqlı əlaqədə hakim yüksəklikləri ələ keçirməsi uğurla icra olunmuşdur.

Təlim ssenarisinə əsasən, düşmən tərəfi döyüş hazırlığına başlayaraq kəşfiyyat və radiokəşfiyyat fəaliyyətlərini gücləndirmişdir. Əlahiddə Ümumqoşun Ordusunun müdafiəsini yarmağa cəhd göstərən düşmənin silahlı birləşmələri strateji rayonları ələ keçirmək və torpaqlarımızı işğal etmək məqsədilə irimiqyaslı hücum əməliyyatına başlamış və təmas xəttində atəşkəs rejimini pozaraq təmas xətti boyu mövqeləri, eləcə də cəbhəyanı bölgələrdə yerləşən yaşayış məntəqələrini iriçaplı silahlardan atəşə tutmuşdur. Əlahiddə Ümumqoşun Ordusu operativ qaydada əks-hücum əməliyyatını yerinə yetirmiş və düşmən birinci eşalon müdafiə mövqeyini itirərək dərinliyə çəkilməyə məcbur olmuşdur.



Xüsusi təyinatlı və motoatıcı briqadaların kəşfiyyat qrupları düşmənin dərinliyində idarətmə məntəqələrinin, raket-artilleriya və hava hücumundan müdafiə vasitələrinin atəş və start mövqelərinin aşkar edilməsi üzrə fəaliyyətə başlamış, pilotsuz uçuş aparatı və kəşfiyyat müşahidə cihazının vasitəsilə qarşı tərəfin fəaliyyəti həm döyüşqabağı, həm də döyüş müddətində izlənilərək nəzarətdə saxlanılmışdır. Motoatıcı briqadanın artilleriya divizionu ordunun reaktiv və artilleriya qrupları batareyalarının dəstəyi ilə düşmənin tutduğu mövqelərdə möhkəmlənməsinə imkan verməmək üçün artilleriya atəşini davam etdirmiş və ara-sıra döyüş sahəsini xüsusi mərmi ilə 400 metr radiusda işıqlandırmışdır. Yandan ötüb keçən dəstələr təyin olunmuş rayonların tutulması üçün hərəkətə başlamışdır. Dəstə komandiri hərəkət istiqamətini iz buraxan güllə ilə təyin etmiş və siqnal raketi ilə ərazi işıqlandırılmışdır.

Hücumu dayandırmaq və yenidən qruplaşma keçirən motoatıcı və tank bölmələrinə zərbə endirməyə çalışan düşmənin 2 atəş-dəstək vertolyotu daşınan zenit-raket kompleksi və artilleriya qurğularından açılan atəşlərlə məhv edilmişdir. Artilleriya divizionu reaktiv artilleriya qruplarının batareyaları ilə qarşılıqlı əlaqədə düşmənin canlı qüvvəsinə, atəş mövqelərinə və idarəetmə məntəqələrinə zərbə vurmuş, düşmən mövqelərinin ön xəttində işıq həddi qoyaraq tabor taktiki qruplarının hücuma keçməsini təmin etmişdir. Düzünə tuşlamaya ayrılmış toplar, tanklar və döyüş texnikaları düşmənin zirehli texnikalarını və tank əleyhinə vasitələrini sıradan çıxartmışdır. Atəş-dəstək vertolyotları cinahlardan düşmən müdafiəsinin yaxın dərinlikdə aşkar olunmuş zirehli texnikasına zərbələr endirmiş, yandan ötən dəstələr hakim yüksəklikləri ələ keçirərək möhkəmlənmişlər.

Birinci səngər ələ keçirildikdən sonra işıqlandırıcı mərmiləri, tüstüburaxma qurğuları və projektorları işə salmaqla düşmən qarşısında koretmə səddi yaradılmışdır. Bundan sonra piyadalaşan bölmələr yandan ötüb keçən dəstələrlə qarşılıqlı əlaqədə düşmən bölmələrini darmadağın etmiş və yaxın tapşırığı yerinə yetirmişlər. Mİ-35M vertolyotunun hava növbətçiliyi aparması ilə Mİ-17 vertolyotu yandan ötüb keçən dəstələrə döyüş sursatı gətirmiş və yaralılar təxliyə olunmuşdur.

Təlim zamanı tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkili,

Ardı 2-ci səhifədə

qarşıya qoyulan tapşırıqların icrası, şəxsi heyətin gecə dağlarda fəaliyyəti, silah və döyüş texnikasının gecə vaxtı tətbiqi uğurla həyata keçirilmişdir. Təlimin nəticəsi göstərdi ki, Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti dağlarda müxtəlif gecə döyüş əməliyyatları həyata keçirməyə qadirdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq demişdir: Ordunun döyüş qabiliyyətinin artırılmasında və hərbçilərin döyüşçü kimi yetişməsində təlimlərin mühüm rolu vardır. Keçirilən hər bir hərbi təlim şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması yolunda atılan növbəti addımdır. Bu gün torpaqlarımız işğal altındadır, ölkəmiz isə müharibə şəraitində yaşayır. Bu da ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin, xüsusilə hərbi təlimlərin mütəmadi keçirilməsini, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin yüksəldilməsini zəruri edir. Ordunun gücü xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən asılıdır. Bugünkü hərbi təlimdə iştirak edən əsgər və zabitlərin qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməsi də onların döyüş hazırlığı ilə yanaşı, həm də ruh yüksəkliyini və vətənpərvərliyini bir daha nümayiş etdirdi.

Ali Məclisin Sədri hərbi təlimlərin mütəmadi olaraq davam etdirilməsinin vacibliyini bildirmiş, hərbi təlimdə iştirak edən şəxsi heyətə təşəkkür etmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərini bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Dəmirçi Kənd Mərkəzində Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açmış və məruzə ilə çıxış etmişdir.*

Əmir Babayev Milli Qurtuluş Gününün ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını bildirmiş, 1990-cı illərin əvvəllərində hökm sürən olduqca mürəkkəb və gərgin bir şəraitdə əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsində, Azərbaycanın kökü qədimlərə gedən dövlətçilik ənənələrinin yenidən bərpa olunmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışmışdır.

Vurğulanmışdır ki, ulu öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Dahi rəhbər müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il müddətində milli inkişaf strategiyasını irəli sürmüş və onu uğurla həyata keçirmişdir.

Bildirilmişdir ki, bu gün bölgədə dünyanın marağını çəkən bir çox iri layihələr yalnız Azərbaycanın razılığı və iştirakı ilə həyata keçirilir. Ölkəmiz beynəlxalq səviyyəli mədəniyyət və idman tədbirlərinə ev sahibliyi edir, bu tədbirlərin keçirilməsində hətta inkişaf etmiş dövlətlərə də nümunə göstərir.

“Bu gün müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin ideyaları ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir”, – deyən Əmir Babayev bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin müdrik, inamlı, son dərəcə cəsarətli, eyni zamanda tarazlı, xalqının milli maraqlarına xidmət edən daxili və xarici siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır, etibarlı tərəfdaş və sabit ölkə kimi respublikamızın nüfuzu dünyada durmadan artır.

Qeyd olunmuşdur ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçməkdədir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı layihələr əsasında, davamlı milli ənənələrin qorunub saxlanılması şərti ilə muxtar respublikamız əsaslı şəkildə yenidən qurulur. Bunu Şərur rayonunun timsalında da aydın görmək mümkündür. Qədimlik və müasirliyin işığında qurulub tikilən Şərur şəhəri bənzərsiz gözəlliyə qovuşmuş, genişmiqyaslı abadlıq və quruculuq tədbirləri rayonun kəndlərini də tanınmaz dərəcədə dəyişmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatında Milli Qurtuluş Günü münasibətilə keçirilən tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq bildirmişdir ki, 1991-1993-cü illər arasında ölkə rəhbərliyində olan siyasi dairələrin səriştəsizliyi, dünyada və respublikada gedən proseslərin əsl mahiyyətinin düzgün dərk edilməməsi Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmışdı. Vəziyyəti mürəkkəbləşdirən daha ciddi amil isə Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində yaranan və günü-gündən şiddətlənməkdə olan Dağlıq Qarabağ münaqişəsi idi. Belə mürəkkəb və taleyüklü anlarda Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz o zaman ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Naxçıvanda başlamış qurtuluş mübarizəsi özünün yeni – həlledici mərhələsinə qədəm qoydu, bütün Azərbaycanın qurtuluşu başlandı.

Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyevin qurucusu və memarı olduğu müstəqil Azərbaycan dövləti elə onun rəhbərliyi ilə qısa zaman kəsiyində dünyada sözükeçən bir dövlətə çevrildi. Bu gün xalqımız ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin apardığı uğurlu siyasəti dəstəkləyir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında da ulu öndərimiz Heydər Əliyevin ideyalarına böyük ehtiram və sədaqət göstərilməklə ümummilli lider tərəfindən müəyyənləşdirilmiş quruculuq siyasəti əzmlə həyata keçirilir.

Muxtar respublikamızın hər bölgəsində olduğu kimi, Culfa rayonunda da quruculuq, abadlıq, yaşıllaşdırma tədbirləri geniş vüsət almışdır. Culfa şəhəri və rayonun kəndləri simasını dəyişir, yeniləşir.

Sonra məruzə ətrafında çıxışlar olmuş, tədbir iştirakçıları Milli Qurtuluş Gününə həsr edilmiş slayda baxmışlar.

* * *



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında da 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, 1993-cü ilin yayında Azərbaycan xalqı təhlükə qarşısında olan dövlətini xilas etmək üçün üzünü Naxçıvana tutdu, mənalı həyatını bütünlüklə xalqının və dövlətinin inkişafına həsr edən ümummilli lider Heydər Əliyevə müraciət etdi. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev dağılmaq, parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi təlatümlər burulğanından xilas etdi.

Müdrik rəhbər uzaqgörən siyasəti ilə ölkənin gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin inkişafı və qüdrətlənməsi naminə gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu illərdə ictimai-siyasi, iqtisadi və mədəni həyatımızın bütün sahələrində əldə edilmiş dirçəliş məhz ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərinin bəhrəsidir. Elə bu səbəbdən də hər bir azərbaycanlı iyunun 15-ni – ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışını – Milli Qurtuluş Gününü ümumxalq bayramı kimi qeyd edir.

Tədbirdə Yeni Azərbaycan Partiyası fəallarından Kəmalə Əliyeva, Yalçın Bayramov, Ceyhun Qurbanov və başqaları çıxış edərək bildiriblər ki, bir xilaskar kimi Azərbaycan tarixində Heydər Əliyevin rolu bu vaxtadək heç kimlə müqayisə edilməyəcək dərəcədə yüksəkdir. Bu gün Azərbaycanın yüksəldiyi ucalıq sübut edir ki, ölkəmiz ötən əsrin sonlarında ikinci dəfə, sadəcə, müstəqilliyinə qovuşmayıb, ulu öndərin titanik fəaliyyəti nəticəsində çox qısa zaman kəsiyində əsrlərə bərabər inkişaf, tərəqqi yolu keçib. Nə qədər ki Azərbaycan xalqı var, Azərbaycan dövləti var, Heydər Əliyev daim yaşayacaqdır.



***15 İyun – Milli Qurtuluş Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.***

“Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu” mövzusunda təşkil olunan sayca 21-ci məşğələni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, Azərbaycan xalqı və dövləti öz müstəqilliyini, bu gününü və gələcəyini ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasına borcludur. Məhz müstəqillik dövründə əldə edilən bütün uğurların, ölkəmizdə hökm sürən siyasi-iqtisadi sabitliyin, təmin olunan təhlükəsizliyin, mövcud iqtisadi qüdrətin kökündə ulu öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı dayanır.

Komitə sədri deyib ki, dahi şəxsiyyətin məhv olmaq təhlükəsindən xilas edib dönməz və əbədi müstəqillik yoluna çıxardığı Azərbaycan xilaskar və qurucu rəhbərin – xalqımızın böyük oğlu Heydər Əliyevin şah əsəridir; bugünkü Azərbaycan ulu öndərin reallaşan arzusudur.

“Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu” mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli qeyd edib ki, xilaskarlıq missiyası ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin bütün dövrlərində özünü əyani şəkildə göstərir. Azərbaycanın milli maraqlarının, milli-mənəvi dəyərlərinin, coğrafi bütünlüyünün, tarixi yaddaşının, milli məfkurəsinin qorunması naminə son dərəcə ağır və çətin dönəmlərdə həyata keçirilən bütün işlər dahi rəhbərin xilaskarlıq missiyasının tərkib hissəsidir. Ulu öndərin 1993-cü il iyun ayının 15-də Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ümidsizliyə düçar olmuş, sabaha inamı sarsılmış bir xalqın özünə qayıdışı, öz içində inama və ümidə tutunması, ölkə daxilində milli birliyin təmin olunması, siyasət arenasına siyasi mədəniyyətin gətirilməsi, milli dövlətçilik anlayışının, Azərbaycançılıq ideologiyasının formalaşması və inkişafı baxımından əlamətdardır.

Vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin və onun siyasi xəttinin müstəqil Azərbaycana bəxş etdiyi inkişaf və tərəqqinin əsl mahiyyətini ortaya çıxarmaq üçün 1993-cü ilin Azərbaycanı ilə müasir dövrün Azərbaycanını müqayisə etmək kifayətdir. Bu gün Azərbaycan Avropa ilə Asiyanın qovşağında geosiyasi körpü rolunu oynayan qüdrətli dövlət, regionda lider ölkədir.

“Naxçıvandan başlanan qurtuluş” mövzusunda məruzə ilə çıxış edən komitənin Audit şöbəsinin böyük inspektoru, gömrük xidməti mayoru Məmməd Adıgözəlov vurğulayıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndər tərəfindən Naxçıvanın xilası, erməni işğalından qorunması naminə görülən işlər Azərbaycan xalqında belə bir ümid yaratmışdı ki, ölkəmizi düçar olduğu ağır vəziyyətdən, siyasi-iqtisadi böhrandan, getdikcə dərinləşən təcavüzdən yalnız ulu öndər Heydər Əliyev xilas edə bilər. Məhz o dövrdə dahi rəhbərin təkidlə Naxçıvandan Azərbaycana siyasi rəhbərliyə çağırılması xalqın öz böyük oğluna sarsılmaz inamının ifadəsi idi.

Sonda tədbir iştirakçıları “Dahi şəxsiyyət” adlı filmə baxıblar.

# “Naxçıvan” Universitetində elmi-praktik konfrans

***“Naxçıvan” Universitetində “Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi aqrar siyasət: mövcud vəziyyət və inkişaf perspektivləri” mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb.

Konfransda universitetin əməkdaşlarından aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Dilsuz Qasımovun “Aqrar sahədə islahatlar: dinamik və stabil iqtisadi inkişafa doğru”, iqtisad üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovun “Son 20 ildə Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı”, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Tural Haqverdiyevin “Naxçıvan Muxtar Respublikasında aqrar sahənin müasir vəziyyəti və inkişaf perspektivləri”, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşı Kamil Qurbanovun “Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunmasında baytarlıq xidmətinin rolu” mövzularında məruzələri dinlənilib.



Məruzələrdə vurğulanıb ki, muxtar respublikada əhalinin etibarlı ərzaq təminatı iqtisadi siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Hələ keçən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən ilk dəfə olaraq muxtar respublikada aqrar islahatların həyata keçirilməsinə başlanılıb. 1992-ci il aprel ayının 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında”, “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar aqrar sahənin inkişafı ilə yanaşı, etibarlı ərzaq təminatının yaradılmasına da öz təsirini göstərib. Muxtar respublikada torpaq islahatının uğurla başa çatdırılması, yeni emal müəssisələrinin yaradılması və həyata keçirilən digər tədbirlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artıb. Bununla yanaşı, dövlət proqramlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionda infrastruktur layihələrinin həyata keçirilməsi yerli məhsulların xüsusi çəkisinin artmasını təmin edib.

Bildirilib ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı, əsasən, intensiv amillər hesabına təmin olunur. Yüksək məhsuldarlığı olan toxum sortlarının, gübrələrin dövlət dəstəyi ilə alınaraq torpaq mülkiyyətçilərinə çatdırılması, suvarma sistemlərinin təkmilləşdirilməsi və ya yenidən qurulması, ən müasir texniki avadanlıqların lizinq yolu ilə fermerlərin istifadəsinə verilməsi və digər bu kimi tədbirlər kənd təsərrüfatı məhsulları istehsalının artımına əhəmiyyətli təsir göstərib.

**Xəbərlər şöbəsi**

## Dövlət qulluqçuları and içiblər



Dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 18 fevral 2015-ci il tarixdə elan edilmiş müsabiqəyə yekun vurulub.

Dünən Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində vəzifəyə yeni təyin olunmuş dövlət qulluqçularının andiçmə mərasimi keçirilib. Mərasimdə dövlət qulluqçuları Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, onların üzərinə qoyulan vəzifələri qərəzsiz, vicdanla və Vətənin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Komissiyanın sədri Etibar Musayev, şöbə müdiri Rafiq Nəcəfov çıxış edərək mərasim iştirakçılarını 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbrik edib, dövlət qulluqçularına gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyindəki eksponatlarla tanış olublar.

Məlumat üçün qeyd edək ki, müsabiqəyə 314 vakant vəzifə üzrə sənəd təqdim edən 351 namizəddən 321-i test imtahanlarında iştirak edib. Onlardan 149 nəfəri müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Müsahibə mərhələsində iştirak edən 129 namizəddən 75 nəfəri müsabiqəni müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında müvafiq vəzifələrə təyin olunublar.

**Xəbərlər şöbəsi**

Milli Qurtuluş Gününün bəhrələri

## *Kəngərli rayonu*
## inkişaf və tərəqqi dövrünü yaşayır

**Bu il Milli Qurtuluş tariximizin 22-ci ili tamam olur. Hər il iyunun 15-də xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəmizdə təntənəli surətdə qeyd olunur. Bu qayıdış müstəqilliyini yenicə bərpa etmiş bir məmləkəti tarix səhnəsindən silinmək təhlükəsindən qurtarmaqla bərabər, həm də Azərbaycanı Azərbaycana qaytardı. Qədim tarixə, zəngin mədəniyyətə, milli dövlətçilik ənənələrinə malik ölkəmizin dayaqlarını bərkitdi, qısa zamanda onu dünyanın nüfuzlu dövlətləri sırasına çıxardı. Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində, millətimizin özünə qayıdışında mühüm rol oynayan Azərbaycançılıq ideologiyasının formalaşdırılması baxımından da çox böyük məna və önəm kəsb edir. Təbii ki, müstəqil Azərbaycanın hərtərəfli inkişaf tarixi də məhz həmin gündən başlayır.**



Bu gün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının, siyasi ekspertlərin də yekdil fikri bundan ibarətdir ki, Azərbaycan çox sürətli inkişaf parametrlərinə malik nadir ölkələrdəndir. Bu inkişaf müharibə şəraitində yaşayan, regionda dondurulmuş və hər an alovlana biləcək münaqişə ocaqlarına həm fiziki, həm də siyasi baxımdan yaxın olan Azərbaycanda baş verir. Bu inkişafın formulu indi inkişaf etməkdə olan bir çox dünya ölkələrinə nümunə ola bilər. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası isə bu inkişaf və tərəqqinin önündə gedərək özünün intibah dövrünü yaşayır. Tarixin heç bir dönəmində bu cür tərəqqinin şahidi olmayan muxtar diyarın hər bir bölgəsi, hər bir yaşayış məntəqəsi indi Milli Qurtuluşun töhfələrindən bəhrələnərək daha da gözəlləşib, inkişaf edib. Elə bu yazıda da belə bölgələrimizdən biri – muxtar respublikamızın, eləcə də Azərbaycanımızın ən gənc rayonlarından olan Kəngərli rayonunun inkişafından bəhs edəcəyik.

Kəngərli rayonu 11 il bundan əvvəl, 2004-cü il martın 19-da təşkil edilib. Bir hissəsi Şərur rayonunun, digər hissəsi isə Babək rayonunun ərazilərinə aid olan bu qədim kəngərlilər yurdunun sakinləri muxtar respublikanın ərazi bütövlüyünün qorunmasında fəal iştirak edib, ümummilli lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə böyük şəxsiyyətin ideyalarının həyata keçirilməsinə öz töhfələrini veriblər. 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan islahatlar regionda ərazi idarəetmə strukturlarının da təkmilləşdirilməsinə öz təsirini göstərib və nəticədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması ilə Kəngərli rayonu təşkil edilib. Qanuna görə, Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Qabıllı, Yurdçu, Şahtaxtı və Yeni Kərki kəndlərini əhatə edən ərazi vahidləri bu rayona daxil edilib. Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrilib.

Kəngərli rayonunun mərkəzi olan Qıvraq qəsəbəsi 11 il bundan əvvəl Qıvraq kəndindən, bir də ki kəndin şimal hissəsində yerləşən boş və quru çöllük ərazilərdən ibarət idi. O zaman çoxları bu ərazinin gözəl bir rayon mərkəzinə çevriləcəyini təsəvvür edə bilmirdi. Hətta burada hər hansı bir infrastrukturun yaradılmasının mümkünsüzlüyünü düşünənlər də vardı. Ancaq Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi qısa bir zamanda Kəngərli rayonunu gözəlliklər diyarına çevirdi. Ötən dövr ərzində burada rayon mərkəzi üçün tələb olunan bütün layihələr həyata keçirildi, təhsil, mədəniyyət, səhiyyə obyektləri tikildi, idarəetmə orqanları üçün yeni inzibati binalar istifadəyə verildi. 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Onların işlə təmin edilməsi ailədə də sabitliyin yaranması deməkdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır".***

Naxçıvan-Sədərək magistral yolunun üzərində yerləşən Kəngərli rayonu 1 qəsəbə və 10 kəndi özündə birləşdirir. Rayon mərkəzində tikilən müasir inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi Kəngərlinin simasına xüsusi yaraşıq verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək dəyərləndirib, rayona səfərləri çərçivəsində bir sıra quruculuq ünvanlarının açılışında iştirak edib. 2010-cu ildə Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonundan keçən hissəsinin və rayon mərkəzində ucalan ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimində ölkə başçısı sakinlərlə görüşərək burada həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. 2012-ci ildə Kəngərli Rayon Mədəniyyət Evinin açılış mərasimində iştirak edən dövlət başçısı demişdir: ***"Biz iki il əvvəl də sizinlə görüşmüşük. İki il əvvəl ulu öndərin abidəsinin açılışında bərabər idik. Mən çox şadam ki, bu iki il ərzində Kəngərli rayonunda böyük işlər görülmüşdür. Burada doğrudan da, gözəl mərkəz yaradılmış, yeni inzibati binalar tikilmişdir, indi fərdi evlər də tikilməkdədir... Bu gün gözəl mədəniyyət evinin açılışında toplaşmışıq. Bir neçə il əvvəl Naxçıvanda Heydər Əliyev adına möhtəşəm mədəniyyət mərkəzinin açılışında iştirak etmişdik. İndi isə Kəngərli rayonunda mədəniyyət evinin açılışında iştirak edirik. Bu, böyük rəmzi məna daşıyır. Çünki bir neçə il əvvəl Kəngərli rayonu inzibati ərazi kimi mövcud deyildi. Bir neçə il bundan əvvəl Vasif Talıbov belə təşəbbüslə çıxış etmişdi. Mən bu təşəbbüsü təkcə kağız üzərində deyil, əməldə dəstəklədim və qısa müddətdə rayon yaradıldı. Qeyd etdiyim kimi, bu gün rayonun artıq inzibati mərkəzi vardır. Bu mərkəz böyüyəcəkdir və əminəm ki, gələcək illərdə Kəngərli rayonunda bundan da gözəl və yaxşı işlər görüləcəkdir".***

Muxtar respublikamızda kənd yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, xüsusilə yeni kənd mərkəzlərinin tikintisi Kəngərli rayonunda da geniş vüsət alıb, mühüm tədbirlər həyata keçirilib. Ötən 11 il ərzində rayonun Yurdçu kəndi istisna olmaqla, bütün kəndlərində kompleks quruculuq işləri aparılıb. Yurdçu kəndində isə bu il quruculuq tədbirlərinə başlanılıb. Rayon yeni kənd mərkəzlərinin mövcudluğuna görə muxtar respublikanın bütün bölgələrindən irəlidədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq, yenidən qurulan yollar yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin qurulmasına öz töhfəsini verib. Uzunluğu 39 kilometr olan və 13 min nəfərdən çox əhalinin yaşadığı 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yolla birləşməklə) dairəvi avtomobil yolu adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asanlaşdırıb. Rayonda quruculuq tədbirləri bu gün də davam etdirilir. Yuxarıda da qeyd etdiyimiz kimi, Yurdçu kəndində kənd mərkəzinin tikintisi, kənd məktəbinin yenidən qurulması, Qıvraq qəsəbəsində və Şahtaxtı kəndində mərasim evlərinin, rayon mərkəzində ticarət mərkəzinin tikintisi aparılır. Xatırlatmaq lazımdır ki, ötən dövr ərzində rayonda əhalinin mənzil şəraitinin yaxşılaşdırılması da diqqətdən kənarda qalmayıb. Belə ki, 11 il ərzində Çalxanqala kəndində 24, Xıncab kəndində 1, ümumilikdə, 25 qaçqın və məcburi köçkün ailəsinə, Qıvraq qəsəbəsində 2, Şahtaxtı kəndində 1, Çalxanqala kəndində 2, Böyükdüz kəndində isə 1 əlil ailəsi üçün, ümumilikdə, 9 fərdi yaşayış mənzili tikilərək istifadəyə verilib.

Ötən müddətdə mədəniyyətə göstərilən dövlət qayğısı Kəngərli rayonunun mədəni inkişafına da zəmin yaradıb. Rayonda rayon mədəniyyət evi, 5 kənd mədəniyyət evi, 5 kənd klubu, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 2 uşaq musiqi məktəbi və Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyət göstərir. Eyni zamanda dünya əhəmiyyətli Qarabağlar türbəsi, qədim Şahtaxtı hamamı və Şahtaxtinskilər Muzeyi də Kəngərlinin maraqlı ünvanlarındandır. Rayon mərkəzində yerləşən mədəniyyət evi, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahtaxtı kəndində yerləşən Şahtaxtinskilər Muzeyi yeni mədəniyyət müəssisələrindəndir. Yerlərdə fəaliyyət göstərən mədəniyyət müəssisələri, klub və kitabxanalar yeni istifadəyə verilmiş kənd mərkəzlərində yerləşdirilib.

Kəngərli rayonu da muxtar respublikamızın digər rayonları kimi, aqrar bölgə olduğundan burada kənd təsərrüfatının inkişaf etdirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Buna görə də rayonda meliorasiya və su təsərrüfatı sahəsində mühüm tədbirlər həyata keçirilir. Ötən müddətdə Qarabağlar, Şahtaxtı və Böyükdüz kəndlərinin hər birində 1 su nasos stansiyası tikilib, yeni su xətləri çəkilib, kəhrizlər bərpa olunub. Bundan əlavə, rayonda torpaqların suvarılması üçün Babək rayonunun ərazisində yerləşən Uzunoba Su Anbarından 40 kilometr suvarma su xətti çəkilib. Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, 1 may 2015-ci il tarixə rayonda 1883 hektar sahədə yazlıq əkin keçirilib. Əkin sahələrinin 937 hektarını dənli və dənli-paxlalı, 110 hektarını dən üçün qarğıdalı, 70 hektarını dən üçün günəbaxan, 206 hektarını kartof, 187 hektarını tərəvəz, 163 hektarını bostan bitkiləri, 210 hektarını isə cari ilin çoxillik ot bitkiləri təşkil edir.

Muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı Kəngərli rayonunda da öz bəhrələrini verməkdədir. Buna görədir ki, rayonda hər il özəl müəssisələrin sayı artır. Hazırda rayon ərazisində sement zavodu, yanacaqdoldurma məntəqəsi, daş karxanaları, iki istixana kompleksi, soyuducu anbar, üç quşçuluq təsərrüfatı, un dəyirmanı, qənnadı məmulatları, çörək sexləri, pendir istehsalı, tərəvəz məhsullarının qablaşdırılması sahələri və digər müəssisələr fəaliyyət göstərir.

Ümumiyyətlə, Kəngərli rayonunda digər sahələrin inkişafında da ilbəil artım templərini müşahidə etmək mümkündür. Təbii ki, həyata keçirilən tədbirlər rayonda məşğulluq məsələlərinin həllinə də öz təsirini göstərməkdədir. Təkcə 2015-ci ilin ilk rübündə rayonda 22 yeni iş yeri açılıb ki, bu iş yerlərinin də 20-si daimi iş yerləridir. Ümumilikdə isə ötən 11 il ərzində Kəngərli rayonunda 2462 nəfər işlə təmin olunub ki, bu da rayon sakinlərinin sosial rifahının yüksəldilməsində mühüm rol oynayır.

*Bəli, fəxrlə demək olar ki, Kəngərli rayonu muxtar respublikamızın ən gənc rayonu olmasına baxmayaraq, qısa müddət ərzində böyük inkişaf yolu keçib. Milli Qurtuluşumuzun tarixi nailiyyətlərindən öz payını alan bu qədim yurd yeri indi müasirliyi, sosial-iqtisadi uğurları ilə gələcəyə doğru inamla addımlayır. Bu inamın rayon sakinlərinin düşüncəsinə yazıldığı tarix isə bugünkü tərəqqinin təməl daşıdır.*

**Səbuhi HƏSƏNOV**

## Milli Qurtuluş Günü münasibətilə konsertlər davam etdirilir



15 İyun – Milli Qurtuluş Günü münasibətilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin konsertləri davam etdirilir. İyun ayının 10-da Babək rayonunun Cəhri Kənd Uşaq musiqi məktəbinin şagirdləri Vayxır kənd mədəniyyət evində, Şərur rayonunun Şəhriyar Kənd Uşaq musiqi məktəbinin şagirdləri Kürkənd Mərkəzində, Kəngərli rayonunun Qıvraq Qəsəbə Uşaq musiqi məktəbinin şagirdləri Qabıllı Kənd Mərkəzində, iyun ayının 11-də Babək rayonunun Nehrəm Kənd Uşaq musiqi məktəbinin şagirdləri Güznüt kənd mədəniyyət evində, Şərur rayonunun Yuxarı Daşarx Kənd Uşaq musiqi məktəbinin şagirdləri Aşağı Yaycı Kənd Mərkəzində, Culfa rayonunun Bənəniyar Kənd Uşaq musiqi məktəbinin şagirdləri Xanəgah Kənd Mərkəzində bayram konsertləri vermişlər. Konsertlərdə Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnıları ilə yanaşı, xarici ölkə bəstəkarlarının da əsərləri səsləndirilmişdir.

Konsertlərdən əvvəl bildirilmişdir ki, müstəqil Azərbaycan dövlətinin memarı ulu öndər Heydər Əliyev həm Sovetlər Birliyi dönəmində, həm də müstəqilliyimiz illərində milli mədəniyyətin inkişafına xüsusi diqqət yetirmiş, məqsədyönlü tədbirlər həyata keçirmişdir. Dahi rəhbər yeniyetmə və gənclərin bacarıq və istedadlarının üzə çıxarılmasına, bu məqsədlə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin, eləcə də digər incəsənət təmayüllü tədris ocaqlarının yaradılmasına, onların fəaliyyətinin düzgün istiqamətləndirilməsinə ciddi önəm vermişdir.

Ulu öndərin bu sahədə müəyyənləşdirdiyi siyasət muxtar respublikamızda da uğurla həyata keçirilir. Regionun ayrı-ayrı rayon mərkəzlərində, iri kənd yaşayış məntəqələrində musiqi məktəbləri üçün yeni binalar inşa olunur. Həmin tədris ocaqlarının maddi-texniki bazası gücləndirilir. İstedadlı gənc musiqiçilərin müsabiqələrinin təşkil olunması da diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

* * *

15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Musiqi Kollecinin xalq çalğı alətləri orkestrinin konserti olub. 400-dən çox gəncin iştirakı ilə keçirilən tədbiri muxtar respublika Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov açıb.

Sonra orkestrin ifasında musiqi nömrələri səsləndirilib. Konsert tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Qeyd edək ki, konsert proqramını Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi birgə təşkil etmişdi.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 13 iyul 2015-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | 0,1485 ha torpaq sahəsində tikilən, ümumi sahəsi 98,26 kv.m olan fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 15.500 | 15.500 | – | 775 |
| 2. | 0,4323 ha torpaq sahəsində tikilən, ümumi sahəsi 236,3 kv.m olan fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 20.000 | 20.000 | – | 1000 |
| 3. | 320,7 kv.m torpaq sahəsində yerləşən 259,54 kv.m ümumi, 170,3 kv.m əsas, 89,24 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış binası (hamam) | Şərur rayon Yuxarı Aralıq kəndi | 20.000 | – | 17.000 | 1000 |
| 4. | 1415,21 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 73,94 kv.m yaşayış, 54,92 kv.m qeyri-yaşayış, 37,71 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Yuxarı Aralıq kəndi | 15.000 | – | 12.750 | 750 |
| 5. | 634 kv.m torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 147,6 kv.m yaşayış, 114,90 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonundakı Mahmudkənd | 14.400 | – | 12.240 | 720 |
| 6. | 1215,16 kv.m torpaq sahəsində yerləşən 2 mərtəbəli, 3 otaqlı, 73,2 kv.m yaşayış, 71,62 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Yengicə kəndi | 7.000 | – | 5.950 | 350 |
| 7. | 1234 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 48,00 kv.m yaşayış, 17,63 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 6.000 | – | 5.100 | 300 |
| 8. | 0,1984 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kv.m yaşayış, 21,6 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayon Cəhri kəndi | 12.000 | – | 10.200 | 600 |
| 9. | 1279 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,94 kv.m yaşayış, 50,16 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Qarahəsənli kəndi | 4.800 | – | 4.080 | 240 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Kapital Bank" ASC Şərur rayon filialında olan AZ37NABZ01350100000000001944 nömrəli hesaba, "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ98AZEJ00800450190909001 nömrəli hesaba və "Naxçıvan-Kredit" BOKT MMC-nin AZ11 NABZ12350600000000001944 nömrəli hesabına 9 iyul 2015-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirakçı haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 9 iyul 2015-ci il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- kommersiya banklarına ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 iyul 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Muxtar respublikamızda buraxılış imtahanları keçirilib

*Dünən muxtar respublikamızın orta ümumtəhsil müəssisələrinin IX və XI sinif şagirdləri üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirilib.*



İmtahanlar Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında olmaqla, ümumilikdə, 12 mərkəzdə və Heydər Əliyev adına Hərbi Liseydə olub. İlk olaraq, səhər saat $10^{00}$-da IX sinif şagirdləri imtahan veriblər. İki saat ərzində şagirdlər Azərbaycan dili və Riyaziyyat fənlərindən cəmi 60 sual üzrə biliklərini sınayıblar, bir inşa-yazı mövzusu üzrə bacarıqlarını ortaya qoyublar.

Saat $15^{00}$-də isə XI sinif şagirdlərinin son buraxılış imtahanlarına start verilib. Şagirdlər Azərbaycan dili, Riyaziyyat və xarici dildən, xarici dil tədris olunmayan məktəbləri bitirənlər isə Kimya fənnindən suallara cavab tapıblar və inşa-yazı işləyiblər. İmtahanların keçirildiyi Naxçıvan şəhər 7 nömrəli və 14 nömrəli tam orta məktəblərdə olduqda burada təşkil olunmuş yanğın təhlükəsizliyi və tibb xidmətinin şahidi olduq.

Qeyd edək ki, bu il Naxçıvan Muxtar Respublikası üzrə 160 nəfəri Heydər Əliyev adına Hərbi Liseyin kursantı olmaqla, ümumilikdə, 3714 nəfər IX sinfi, 206 nəfəri Heydər Əliyev adına Hərbi Liseyin məzunu olmaqla, 3537 nəfər XI sinfi bitirib. Əldə etdiyimiz məlumata görə, imtahanlarda iştirak fəallığı yüz faiz olub.

İmtahanların təşkili səviyyəsindən razılıq edən valideynlərdən Naxçıvan şəhər sakinləri Ramiz Rzayev, Ələsgər Əliyev dövlətimizin təhsilə göstərdiyi yüksək qayğıya görə minnətdarlıq etdilər. Ələsgər Əliyev qızları Ayşən və Gülşən Əliyevaların Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin IX sinfində oxuduğunu, onların yüksək səviyyəli təhsil almaları üçün müasir şərait yaradıldığını qeyd etdi. İmtahanlardan ilk çıxan IX sinif şagirdlərindən Heydər Əliyev adına tam orta məktəbin şagirdləri Arzu Babayeva və Leyla Cabbarova, Naxçıvan şəhərindəki Qızlar Liseyinin şagirdi Tuncay Hacızadə, Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi Ziya Seyidov, 5 nömrəli tam məktəbin şagirdi Alı Alıyev, 14 nömrəli tam orta məktəbin şagirdi İnci Fətullayeva, 1 nömrəli tam orta məktəbin şagirdi Fərəməz Şirinovla həmsöhbət olduqda onlar verilmiş sualların cavablarını asanlıqla yazdıqlarını bildirdilər. XI sinfi bitirən və buraxılış imtahanlarında iştirak edən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin şagirdlərindən Günay Abbasova və Mehri Mollayeva, 12 nömrəli tam orta məktəbin şagirdi Həsən Novruzov, 9 nömrəli tam orta məktəbin şagirdi Ulduz Tağıyeva, 11 nömrəli tam orta məktəbin şagirdi Kərim Nəcəfov isə imtahan ərəfəsində olan həyəcanın artıq arxada qaldığını, verilmiş sualların həllini tapmaqda çətinlik çəkmədiklərini qeyd etdilər.

İmtahanların nəticələri yaxın günlərdə elan olunacaq.

**✍ Əli CABBAROV**

## Dəmiryolçular ötən ayı uğurla başa vurublar

*Muxtar respublikada dəmir yolu nəqliyyatı vasitəsilə yük və sərnişindaşıma xidmətinin keyfiyyəti hər ötən ay daha da yüksəlir. May ayı ərzində dəmir yolu vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 12 min 600 ton müxtəlif təyinatlı yük daşınmış, 11 min 397 sərnişin rahat və təhlükəsiz şəkildə mənzil başına çatdırılmışdır.*

Ötən ay Culfa lokomotiv deposunda elektrovozlar 4, teplovozlar isə 2 dəfə texniki baxışdan keçirilmiş, 9 vaqon təmir edilmişdir. Həmçinin rahat gediş-gəlişi təmin etmək üçün sərnişin vaqonlarında profilaktik tədbirlər də həyata keçirilmiş, 1 vaqonun istilik sistemi bərpa olunmuşdur.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti İnfrastruktur İdarəsinin kollektivi xidməti ərazilərə, baş və stansiya yollarına müntəzəm baxış keçirmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmiş, bütün keçidlər, yol yatağı və yoldəyişdiricilərdə aşkarlanan çatışmazlıqlar aradan qaldırılmışdır. Defektoskop briqadası da xidməti ərazidəki bütün yolları nəzarətdə saxlamış, müvafiq yerlərdə təmir işləri aparmışdır.

Təhlükəsiz hərəkətin təşkili üçün rabitə və işarəvermə sistemlərinin normal fəaliyyətinə də diqqət yetirilir. Hesabat ayında bu məqsədlə 69 rele, 7 blok dəyişdirilmiş, Ordubad stansiyasında yararsız vəziyyətə düşmüş manevr işıqforunun kabeli yenisi ilə əvəz olunmuşdur. Bu dövrdə elektrik enerjisinin fasiləsiz verilişi də təmin olunmuş, elektrik ötürücüsü xətləri və kontakt şəbəkələri cari təmir olunmuş, bütün inzibati, texniki və yardımçı binaların, stansiyaların, parkların, yükvurma və yükboşaltma meydançalarının işıqlandırma sistemləri yoxlanılmışdır.

Texniki İnzibati Binaların Təmir Tikinti İdarəsi tərəfindən may ayında Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad yol sahəsinin və sərnişin vağzalı binalarının tikintisi davam etdirilmişdir. Ümumiyyətlə, may ayında qatarların fasiləsiz işi təmin olunmuş, yük və sərnişindaşımalarında heç bir problem qeydə alınmamışdır. Kollektiv bu istiqamətdə işləri növbəti aylarda da davam etdirəcəkdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

### *İtmişdir*

Səfərov Zahid Oqtay oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Səfərov Zahid Oqtay oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 452